**[ASİF] İSGƏNDƏROV VƏ BAŞQALARI**
***(ISGANDAROV AND OTHERS)* AZƏRBAYCANA**
**QARŞI**

*(Şikayətlər № 50711/07, 50793/07, 50848/07, 50894/07 və 50924/07)*

QƏRAR

08 iyul 2010-cu il

*Bu qərar Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndində göstərilən hallarda qəti qərara çevrıləcək. Ona redaktə xarakterli dəyişikliklər edilə bilər.*

**İsgəndərov və Başqaları Azərbaycana qarşı işdə,**

Avropa İnsan Hüquqları Məhkəməsi (Birinci Bölmə),
*hakimlar:*
Kristos Rozakis *(Christos Rozakis), Sədr,*
Nina Vajiç *(Nina Vajic),*
Anatoli Kovler *(Anatoly Kovler),*
Elizabet Ştayner *(Elisabeth Steiner),*
Xanlar Hacıyev *(Khanlar Hajiyev),*
Din Spilmann *{Dean Spielmann),*
Sverre Erik Cebens *(Sverre Erik Jebens)* vo *Bölmə Katibi* Sören Nilsendən *(Seren Nielsen)* ibarət tərkibdə Palatada iclas keçirərək,
17 iyun 2010-cu ildə qapalı müşavirə keçirərək, həmin tarixdə qəbul
edilmiş aşağıdakı qərarı elan edir:

## İŞƏ BAXILMA QAYDASI

1. Məhkəmə işi İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın ("Konvensiya") 34-cü maddəsinə əsasən 5 Azərbaycan vətəndaşı ("Şikayətçilər"):

- Cənab Asif İsgəndərov, 1954-cü ildə anadan olub, 50711/07 saylı şikayət;

- Cənab Vasif İsmayılov, 1949-cu ildə anadan olub, 50793/07 saylı şikayət;

- Xanım Mirtəranə Kərimova. 1964-cü ildə anadan olub. 50848/07 saylı şikayət;

- Cənab Səmid Kərimov, 1959-cu ildə anadan olub, 50894/07 saylı şikayət; və

- Xanım Sədaqət Əhmədova, 1959-cu ildə anadan olub, 50924/07 saylı şikayət

tərəfindən 08 avqust 2007-ci ildə Məhkəməyə təqdim edilmiş Azərbaycan Respublikasına qarşı ərizələr əsasında başlanıb.

2. Şikayətçilər Azərbaycanda fəaliyyət göstərən hüquqşünas, Cənab N.İsmayılov tərəfindən təmsil olunublar. Azərbaycan Hökumətini ("'Hökumət") isə onun nümayəndəsi Cənab Ç.Əsgərov təmsil edib.

3. Şikayətçilər iddia edirlər ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının onların xeyrinə icra edilməməsi onların Konvensiyanın 6-cı və 13-cü maddələri ilə və Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi ilə təmin olunan ədalətli məhkəmə araşdırması və mülkiyyət hüquqlarını pozub.

4. Birinci Bölmənin Sədri aşağıdakı tarixlərdə Hökumətə şikayətlər barədə məlumat verməyi qərara alıb: 23 oktyabr 2008-ci ildə (50711/07 saylı şikayət üzrə), 03 dekabr 2008-ci ildə (50793/07 və"50848/07 saylı şikayətlər üzrə), 17 dekabr 2008-ci ildə (50894/07 saylı şikayət üzrə) və 08 yanvar 2009-cu ildə (50924/07 saylı şikayət üzrə).

5. Həmçinin qərara alınıb ki, şikayətin mahiyyəti və qəbuledilənliyi məsələlərinə eyni vaxtda baxılsın (29-cu maddənin 1-ci bəndi).

## FAKTLAR

## I. İŞİN HALLARI

6. Əlavədə göstərilmiş tarixlərdə hər bir şikayətçiyə Bakıda təzəlikcə tikilmiş eyni yaşayış binasındakı mənzillər üçün yaşayış orderi verildi (I cədvələ bax).

7. Eyni zamanda, şikayətçilələrə məlum oldu ki, Dağlıq Qarabağ ətrafında Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Ermənistan hərbi qüvvələrinin işğalı altında olan müxtəlif rayonlardan məcburi köçkünlərin ailələri onların müvafiq mənzillərində məskunlaşıblar.

8. Şikayətçilərin sözlərinə görə, çoxsaylı tələblərinə baxmayaraq, məcburi köçkün ailələri mənzilləri tərk etməkdən imtina edərək bildirdi ki, məcburi köçkündürlər və yaşamaq üçün başqa yerləri yoxdur.

9. Müxtəlif tarixlərdə şikayətçilər Yasamal Rayon Məhkəməsində iddia qaldıraraq məhkəmədən xahiş etdilər ki, bu ailələrin onların mənzillərindən çıxarılması barədə qərar qəbul etsin.

A. **50711/07, 50793/07, 50848/07 və 50894/07 saylı şikayətlər**

10. Əlavədə (cədvəl I) göstərilmiş tarixlərdə Yasamal Rayon Məhkəməsi şikayətçilərin iddialarını təmin etdi və məcburi köçkün ailələrinin mənzillərdən çıxarılması barədə qətnamələr qəbul etdi. Bütün işlərdə məhkəmə qərara aldı ki, yaşayış orderlərinə asasan şikayətçilər mənzillərin yeganə qanuni kirayəçisidirlər və beləliklə, mənzillər məcburi köçkün ailələri tərəfindən qanunsuz zəbt olunub.

11. Yasamal Rayon Məhkəməsinin qətnamələrindən apellyasiya şikayəti verilmədi və daxili qanunvericiliyə uyğun olaraq, müvafiq apellyasiya müddətləri bitdikdən sonra onlar qüvvəyə mindi. Lakin məcburi köçkün ailələri qətnamələri yerinə yetirməkdən imtina etdilər və şikayətçilərin müxtəlif dövlət orqanlarına şikayətlərinə baxmayaraq, qətnamələr icra olunmadı.

12. Eyni vəziyyətdə olan şikayətçilər 2006-cı ildə naməlum tarixdə Yasamal Rayon Məhkəməsinə birgə iddia ərizəsi verərək şikayət etdilər ki, Məhkəmə İcraçıları və Məhkəmə Qərarlarının İcrasına Nəzarət İdarəsinin Yasamal rayon şöbəsi ("Məhkəmə İcraçıları Şöbəsi") qətnamələrin icrası üçün tədbir görməyib.

13. 27 dekabr 2006-cı ildə Yasamal Rayon Məhkəməsi şikayəti əsassız sayaraq rədd etdi. Şikayətçilər bu qərardan apellyasiya şikayəti verdilər. Bir sıra apellyasiya şikayətlərindən və ləğvedici qərarlardan sonra Apellyasiya Məhkəməsi 12 noyabr 2007-ci ildə şikayətçilərin tələbini rədd etdi və işə xitam verərək qeyd etdi ki, qətnamələrin icrası ilə bağlı ayrıca qərarlar çıxarmağa ehtiyac yoxdur.

14. İşin materiallarından belə görünür ki. bu şikayətlər Məhkəməyə təqdim edildikdən sonra cavabdeh məcburi köçkün ailələri Yasamal Rayon Məhkəməsinə bir neçə vəsatət verərək onların şikayətçilərin mənzillərindən çıxarılması barədə qətnamələrin icrasının təxirə salınmasını xahiş

ediblər. Onlar bildiriblər ki, məcburi köçkün olduqlarına görə yaşamaq üçün sözügedən mənzillərdən savayı başqa yerləri yoxdur. Şikayətçilərlə sonuncu yazışmalar zamanı belə görünür ki, bir sıra apellyasiya şikayətlərindən və ləğvedici qərarlardan sonra məcburi köçkünlərin qətnamələrin icrasının təxirə salınması barədə vəsatətlərinin heç biri təmin edilməyib. Bu icraatları aşağıdakı şəkildə qısaca ümumiləşdirmək olar.

15.6 iyun 2008-ci ildə Yasamal Rayon Məhkəməsi qətnamələrin icrasının təxirə salınması barədə cavabdehlərin birgə vəsatətini prosessual normalara uyğun olmadığına görə qəbulolunmayan elan etdi. Məhkəmə izah etdi ki, məcburi köçkünlər vəsatətlərinin ayrı-ayrılıqda verməlidirlər.

16. Bu cür ayrıca vəsatətlər yalnız iki şikayətə (50848/07 və 50894/07 saylı şikayətlərə) aidiyyəti olan məcburi köçkün ailələri tərəfindən verildi:

a) 50848/07 saylı şikayətə aidiyyəti olan məcburi köçkünlərə gəldikdə, 10 noyabr 2008-ci ildə Yasamal Rayon Məhkəməsi qətnamənin icrasının təxirə salınması barədə vəsatəti təmin etdi. 19 dekabr 2008-ci ildə Bakı Apellyasiya Məhkəməsi qətnamənin icrasının təxirə salınması barədə qərarı qüvvədə saxladı. 23 fevral 2009-cu ildə Ali Məhkəmə qətnamənin icrasının təxirə salınması barədə qərarı ləğv etdi və işi yenidən baxılmaq üçün Bakı Apellyasiya Məhkəməsinə göndərdi.

b) 50894/07 saylı şikayətə aidiyyəti olan məcburi köçkünlərə gəldikdə, 2 iyul 2008j-cı ildə Yasamal Rayon Məhkəməsi qətnamənin icrasının təxirə salınması barədə vəsatəti təmin etdi. 21 avqust 2008-ci ildə Bakı Apellyasiya Məhkəməsi qətnamənin icrasının təxirə salınması barədə qərarı ləğv etdi. 20 oktyabr 2008-ci ildə Ali Məhkəmə həmin ləğvedici qərarı qüvvədə saxladı.

**B. 50924/07 saylı ərizə**

17. Xanım Səadət Əhmədovanın işinə gəldikdə, 12 aprel 2007-cı ildə Yasamal Rayon Məhkəməsi qərara aldı ki, yaşayış orderinə əsasən şikayətçi mənzilin yeganə qanuni kirayəçisidir və məcburi köçkün ailəsi mənzili qanunsuz zəbt edib. Lakin məhkəmə cavabdeh məcburi köçkün ailəsinin Laçındakı daimi yaşayış yerinə qayıda bilməməsini və eyni zamanda başqa yaşayış yerinin olmamasını nəzərə alaraq, qərara aldı ki, qətnamənin icrası onlar Laçına qayıdanadək və ya digər yaşayış yeri ilə təmin olunanadək təxirə salınmalıdır. Şikayətçi bu qətnamədən şikayət verərək müvafiq qanunvericiliyin yanlış şərh olunduğunu iddia etdi. 6 noyabr 2007-ci ildə Bakı Apellyasya Məhkəməsi yeni qərar çıxararaq birinci instansiya məhkəməsinin qətnaməsində icranın təxirə salınmasına aid olan hissəni ləğv etdi. Bakı Apellyasiya Məhkəməsi məcburi köçkün ailəsinin mənzildən çıxarılması barədə qərarı təsdiq etdi. Bu qərardan heç bir şikayət verilmədi və o, qüvvəyə mindi.

**C. Kompensasiya ilə bağlı icraat**

2008-cı ildə naməlum tarixdə bütün şikayətçilər müxtəlif dövlət orqanlarına qarşı birgə iddia ərizəsi verərək onların xeyrinə çıxarılmış qətnamələrin icra olunmamasına görə kompensasiya tələb etdilər. 10 dekabr 2008-ci ildə Yasamal Rayon Məhkəməsi şikayətçilərin tələblərini əsassız sayaraq rədd etdi. 3 mart

18. 2009-cu ildə Bakı Apellyasiya Məhkəməsi və 3 iyul 2009-cu ildə Ali Məhkəmə birinci instansiya məhkəməsinin bu qətnaməsini qüvvədə saxladılar.

19. Şikayətçilərlə sonuncu yazışmalar zamanı müvafiq qətnamələr icra olunmamış qalırdı.

## II. MÜVAFİQ DAXİLİ QANUNVERİCİLİK

20. Müvafiq daxili qanunvericiliyin icmalı *Gülməmmədova Azərbaycana qarşı* işdə (№ 38798/07, 18-24-cü bəndlər, 22 aprel 2010-cu il) verilib.

## HÜQUQ MƏSƏLƏLƏRİ

## I. KONVENSİYANIN 6-cı MADDƏSİNİN 1-ci BƏNDİNİN VƏ 13-cü MADDƏSİNİN VƏ KONVENSİYANIN 1 SAYLI PROTOKOLUNUN 1-ci MADDƏSİNİN İDDİA EDİLƏN POZUNTULARI

21. Şikayətçilər Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə və 13-cü maddəsinə və Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsinə istinad edərək Yasamal Rayon Məhkəməsinin onların xeyrinə çıxardığı qətnamələrin icra olunmamasından şikayət etdilər. Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin bu işə aid hissəsində deyilir:

> *"Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən ... məhkəmə vasitəsilə, ... işinin ədalətli... araşdırılması hüququna malikdir... "*

Konvensiyanın 13-cü maddəsində deyilir:

*"Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir ".*

1 saylı Protokolun 1-ci maddəsində deyilir:

*"Hər bir fiziki və hüquqi şəxs öz mülkiyyətindən maneəsiz istifadə hüququna malikdir. Heç kəs, cəmiyyətin maraqları naminə, qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz.*
*Yuxarıdakı müddəalar dövlətin ümumi maraqlara uyğun olaraq, mülkiyyətdən istifadəyə nəzarəti həyata keçirmək üçün, yaxud vergilərin və ya digər rüsum və ya cərimələrin ödənilməsini təmin etmək üçün zəruri hesab etdiyi qanunları yerinə yetirmək hüququnu məhdudlaşdırmır".*

22. Məhkəmə Reqlamentinin 42-ci Qaydasının 1-ci bəndinə uyğun olaraq, Məhkəmə şikayətlərin ümumi faktoloji və hüquqi əsaslarını nəzərə alaraq, onları bir icraatda birləşdirməyi qərara alır.

### A. Şikayətlərin qəbuledilənliyi

#### *1. 50711/07 və 50793/07 saylı şikayətlərlə bağlı Məhkəmənin zamana görə (rationa-e temporis) səlahiyyəti*

23. Məhkəmə qeyd edir ki, iki işdə (50711/07 və 50793/07 saylı şikayətlərlə bağlı işlərdə) şikayətçilərin xeyrinə daxili məhkəmələrin qətnamələri Konvensiyanın Azərbaycan barəsində qüvvəyə mindiyi tarixdən - 15 aprel 2002-ci ildən əvvəl çıxarılıb.

24. Məhkəmə qeyd edir ki, dövlət orqanlarının sözügedən qətnamələri icra etməməsi davam etdiyinə görə onlar indiyədək icra olunmayıb. Bu səbəbdən davamedici situasiya yaranıb və buna görə də, Məhkəmə şikayətlərin 15 aprel 2002-ci ildən sonrakı dövrə aid olan hissəsinə baxmaq səlahiyyətinə malikdir *(bax: Gülməmmədovanın işi* üzrə yuxanda adı çəkilən qərar, 26-cı bənd).

#### *2. Daxili hüquqi müdafiə vasitələri*

25. 50711/07, 50793/07, 50848/07 və 50894/07 saylı şikayətlərlə əlaqədar olaraq Hökumət qeyd etdi ki, şikayətçilər daxili hüquqi müdafiə vasitələrini tükəndirməyiblər. Bununla bağlı Hökumət bildirdi ki, həmin şikayətlər Məhkəməyə daxil olduğu tarixlərdə Məhkəmə İcraçıları Şöbəsinə qarşı şikayətçilər tərəfindən başlanılmış icraat daxili məhkəmələrdə davam etməkdə idi.

26. Şikayətçılər Hökumətlə razılaşmadılar və iddia etdilər ki, Hökumətin təklif etdiyi hüquqi müdafiə vasitələri bu işin hallan baxımından uyğun vasitələr deyildi.

27. Məhkəmə qeyd edir ki, Hökumət tərəfindən oxşar etiraz *Gülməmmədovamn işində* də bildirilib və Məhkəmə tərəfindən rədd edilib *(bax: Gülməmmədovanın (Gulmammadova) işi* üzrə yuxanda adı çəkilən qərar, 27-ci bənd). Məhkəmə həmin işdəki əsaslandırmasına istinad edir və ondan kənarlaşmaq üçün heç bir səbəb görmür. Buna görə də, Hökumətin etirazı rədd edilməlidir.

***3. Nəticə***

28. Məhkəmə daha sonra hesab edir ki, şikayətlər Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulan mənada aşkar əsassız deyillər və hər hansı başqa səbəblərə görə qəbulolunmayan sayıla bilməzlər. Buna görə də, onlar qəbulolunan elan edilməlidir.

**B. Şikayətlərin mahiyyəti**

29. Hökumət bildirdi ki, Dağlıq Qarabağ ətrafında Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycanda çoxlu sayda məcburi köçkünün olması ucbatından Azərbaycanda məcburi köçkünlərin məskunlaşdırılması ilə bağlı ciddi problem var. Hökumət qeyd etdi ki, şikayətçilərin xeyrinə çıxarılmış qətnamələr icra oluna bilməzdi, çünki sözügedən mənzillərdə məskunlaşmış məcburi köçkünlərin yerləşdirilməsi üçün başqa yaşayış sahəsi yox idi.

30. Şikayətçilər şikayətlərini bir daha təkrar etdilər.

31. Məhkəmə qeyd edir ki, şikayətçilərin xeyrinə çıxarılmış qətnamələr uzun müddət - təxminən üç ildən səkkiz ilədək vaxt ərzində icra olunmamış qalıb.

32. Məhkəmə qeyd edir ki, bu işin faktoloji halları (yuxanda istinad edilən) *Gülməmmədovanın* işindəki hallara oxşardır və bu işdə qaldırılan şikayətlər və hüquq məsələləri həmin işdəkilərlə eynidir. Məhkəmə bir daha xatırladır ki, həmin işdə 6-cı maddənin 1-ci bəndinin və 1 saylı Protokolun 1-ci maddəsinin pozulduğunu müəyyən edib.

33. Məhkəmə ixtiyarında olan bütün materialları araşdıraraq hesab edir ki, Hökumət onu bu işdə fərqli nəticə çıxarmağa inandıra bilən hər hansı fakt və ya arqument ortaya qoymayıb.

34. Konkret olaraq, Məhkəmə bununla razılaşmağa hazırdır ki, bu işdə Azərbaycanda çoxlu sayda məcburi köçkünün olması şikayətçilərin xeyrinə çıxarılmış qətnamələrin icrasında müəyyən çətinliklər yaradıb. Bununla belə, qətnamə qüvvədə qalıb, amma uzun illər onun icrası üçün dövlət orqanları tərəfindən adekvat tədbirlər görülməyib. Dövlət orqanlarının sözügedən qətnamənin icrası üçün daim və səylə tədbirlər gördükləri sübuta yetirilməyib. Belə olan halda Məhkəmə hesab edir ki, Hökumət qətnamənin icrasının əhəmiyyətli dərəcədə gecikdirilməsini əsaslandırmaq üçün hər hansı ağlabatan səbəb göstərməyib *(bax: Gülməmmədovanın (Gulmammadova) işi* üzrə yuxanda adı çəkilən qərar, 40-cı bənd).

35. Şikayətçilərin mülkiyyət hüquqlarının pozulduğu barədə arqumentlərinə gəldikdə, şikayətçilərin Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi ilə qorunan öz mülkiyyətindən maneəsiz istifadə hüququ ilə məcburi köçkünlərin mənzillə təmin olunmaq hüququnun balanslaşdırılması öhdəliyini yerinə yetirmək üçün dövlət orqanları tərəfindən hər hansı konkret tədbirlərin görüldüyü nə daxili məhkəmə icraatlarında, nə də Avropa Məhkəməsindəki icraatda

sübuta yetirildi. Belə vəziyyətdə bir neçə il ərzində qətnamələrin icrasının təmin edilməməsi şikayətçilərin üzərinə həddən artıq fərdi yükün qoyulduğu situasiya ilə nəticələnib. Məhkəmə hesab edir ki, şikayətçilərin üzərinə qoyulmuş bu həddən artıq fərdi yükü kompensasiya etməməklə dövlət orqanları cəmiyyətin məcburi köçkünləri müvəqqəti mənzillə təmin etməkdən ibarət ümumi marağı ilə şikayətçilərin öz mülkiyyətindən maneəsiz istifadə hüququnun qorunması arasında zəruri və ədalətli balansı gözləməyiblər *(bax: Gülməmmədovanın isi* üzrə yuxanda adı çəkilən qərar, 43-50-ci bəndlər).

36. Uyğun olaraq, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin və Konvensiyanın saylı Protokolunun 1-ci maddəsinin pozuntusu baş verib.

37. Məhkəmə Konvensiyanın 13-cü maddəsi üzrə şikayət barədə qərar qəbul etməyə ehtiyac olduğunu hesab etmir. çünki şikayətin bu hissəsinə münasibətdə 6-cı maddəyə *lex specialis* (13-cü maddədəki ümumi müddəanın xüsusi forması) kimi baxmaq olar (nümunə üçün *bax: Əfəndiyeva (Efendiyeva) Azərbaycana qarşı,* № 31556/03, 59-cu bənd, 25 oktyabr 2007-ci il).

## II. KONVENSİYANIN 41-ci MADDƏSİNİN TƏTBİQİ

38. Konvensiyanın 41-ci maddəsində deyilir:

*"Əgər Məhkəmə Konvensiya ona dair Protokolların müddəalarının pozulduğunu lakın Razılığa gələn yüksək tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda, zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir ".*

### A. Ziyan

#### *1. Maddi ziyan*

39. Şikayətçilər maddi ziyana görə Əlavədə (cədvəl II) göstərilmiş müxtəlif məbləğlər tələb etdilər. Tələb olunan məbləğlər itirilmiş icarə haqlarını və mənzillərin iddia edilən bazar dəyərini əhatə edirdi. Şikayətçilər itirilmiş icarə haqlarının məbləğini şəhərin müvafiq hissəsində yerləşən mənzillərin icarə haqlarının aylıq bazar dəyəri haqqında informasiya əsasında hesablayıblar. Bu informasiya bu məsələlər üzrə ixtisaslaşmış assosiasiyadan əldə edilib.

40. Hökumət iddia etdi ki, şikayətçilər mənzillərin bazar dəyərinə görə hər hansı kompensasiya tələb edə bilməzlər. Hökumət daha sonra qeyd etdi ki, eyni assosiasiyaya müraciət edərək tələbin qalan hissəsinin, yəni şikayətçilərin öz mənzilindən istifadə edə bilməməsi nəticəsində itirdikləri icarə haqlan ilə bağlı hissəsinin əsaslarını yoxlayıb və bildirdi ki, şikayətçilərin bu məsələ ilə bağlı ziyana görə tələblərinin bir hissəsini Əlavədə (cədvəl II) göstərilmiş məbləğlərə qədər olan hədd çərçivəsində qəbul etməyə hazırdır.

41. Tələblərin mənzillərin bazar dəyərinə aid olan hissəsinə gəldikdə, Məhkəmə tələblərin bu hissəsini rədd edir, çünki o, aşkar edilmiş pozuntu ilə tələbin bu hissəsi arasında hər hansı səbəb-əlaqə nəticəsi görmür.

42. Tələblərin itirilmiş icarə haqlarına aid olan hissəsinə gəldikdə, Məhkəmə hesab edir ki, tələbin bu hissəsi ilə aşkar edilmiş pozuntu arasında səbəb-əlaqə nəticəsi var və yəqin ki, şikayətçilər mənzillər üzərində nəzarəti itirmələri nəticəsində maddi ziyana məruz qalıblar. Məhkəmə tərəflərin arqumentlərini araşdıraraq və ədalət prinsipi əsasında qərar çıxararaq, ziyanın hesablanması üçün Hökumətin təklif etdiyi baza qiymətini qəbul edir və itirilmiş icarə haqlarına görə şikayətçilərə Əlavədə göstərilmiş məbləğləri (II cədvəldə göstərilən, Hökumətin ödəməyə hazır olduğu məbləğləri) təyin edir, bu məbləğlərdən tutula bilən hər hansı vergi məbləği onların üzərinə əlavə olunmalıdır.

***2. Mənəvi ziyan***

43. Şikayətçilər mənəvi ziyana görə 20.000 AVROdan 25.000 AVROyadək müxtəlif məbləğlər tələb etdilər (Əlavəyə bax, cədvəl II).

44. Hökumət şikayətçilərin mənəvi ziyana görə tələblərini maksimum 1.000 AVRO məbləğində qəbul etməyə hazır olduğunu bildirdi.

45. Məhkəmə hesab edir ki, şikayətçilər, yəqin ki, onların xeyrinə çıxarılmış yekun qətnamənin uzun müddət icra olunmaması nəticəsində müəyyən mənəvi ziyana məruz qalıblar. Lakin tələb olunan məbləğlər həddən yüksəkdir. Məhkəmə Konvensiyanın 41-ci maddəsinin tələb etdiyi kimi qiymətləndirməni ədalət prinsipi əsasında apararaq, şikayətçilərə bu bənd üzrə aşağıdakı məbləğləri təyin edir; həmin məbləğlərdən tutula bilən hər hansı vergi məbləği onların üzərinə əlavə olunmalıdır.

- Cənab Asif İsgəndərov (şikayət № 50711/07) - 4.800 AVRO;

- Cənab Vasif İsmayılov (şikayət № 50793/07) - 4.800 AVRO;

- Xanım Mirtəranə Kərimova (şikayət № 50848/07) - 4.800 AVRO;

- Cənab Samid Kərimov Kərimova (şikayət № 50894/07) - 4.800 AVRO; və

- Xanım Sədaqət Əhmədova (şikayət № 50924/07) - 1.600 AVRO.

46. Bundan başqa, Məhkəmə hesab edir ki, qətnamələr qüvvədə qaldığına görə, onların icrasını təmin etmək üzrə dövlətin yerinə yetirilməmiş öhdəliyi şübhə altına bilməz. Uyğun olaraq, şikayətçilər hələ də qətnamələrin icrası hüququna malikdirlər. Məhkəmə bir daha xatırladır ki, 6-cı maddənin pozuntusu ilə bağlı ən münasib kompensasiya ondan ibarət olardı ki, öncədən 6-cı maddənin tələblərinə əməl edildiyi hal-da şikayətçi hansı durumda olacaqdısa, vəziyyətin mümkün qədər həmin duruma gətirilməsi təmin edilsin *(bax: Pyersak (Piersack) Belçikaya qarşı* (50-ci maddə), 26 oktyabr 1984-cü il, 12-ci bənd, A Seriyaları, № 85). Aşkar edilmiş pozuntunu nəzərə alaraq, Məhkəmə hesab edir ki, həmin prinsip bu işə də şamil olunur. Buna görə də, o, hesab edir ki, Hökumət şikayətçilərin xeyrinə çıxarılmış qətnamələrin icrasını münasib vasitələrlə təmin etməlidir.

**B. Məhkəmə xərcləri və digər məsrəflər**

47. Şikayətçilərin hər biri həmçinin Məhkəmə qarşısındakı icraatda çəkdiyi məhkəmə xərclərinə və digər məsrəflərə görə 1.500 AVRO tələb etdi. Bu tələblər tərkib elementləri üzrə ətraflı bölünməyib və hər hansı sənədlərlə təsdiqlənməyib.

48. Hökumət bu tələbləri əsassız hesab etdi.

49. Məhkəmənin presedent hüququna əsasən, şikayətçi məhkəmə xərclərinin və digər məsrəflərin əvəzinin ödənilməsi hüququna yalnız o halda malik olur ki, həmin xərclərin həqiqətən və zəruri olaraq çəkildiyi sübut edilsin və onlar miqdarca ağlabatan olsun. Bu işdə Məhkəmə şikayətçilərin hər hansı təsdiqedici sənəd təqdim etməməsi faktını nəzərə alaraq məhkəmə xərcləri və digər məsrəflərlə bağlı tələbləri rədd edir.

**C. İcranın gecikdirilməsinə görə faiz**

50. Məhkəmə məqsədəuyğun hesab edir ki, icranın gecikdirilməsinə görə faiz Avropa Mərkəzi Bankındakı borc dərəcəsinin yuxan həddinə əsaslanmalıdır və onun üzlərinə daha üç faiz əlavə olunmalıdır.

**BU ƏSASLARA GÖRƏ, MƏHKƏMƏ YEKDİLLİKLƏ:**

1. Şikayətləri bir icraatda birləşdirməyi *qərara alır;*

2. Şikayətləri qəbulolunan *elan edir;*

3. *Qərara alır ki,* Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi pozulub;

4. *Qərara alır ki,* Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi pozulub;

5. *Qərara alır ki*, Konvensiyanın 13-cü maddəsi üzrə şikayəti araşdırmağa ehtiyac yoxdur;

6. *Qərara alır ki,* cavabdeh dövlət Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq bu qərarın qəti qərara çevrildiyi tarixdən sonra üç ay ərzində şikayətçilərin xeyrinə çıxarılmış daxili məhkəmələrin qətnamələrinin icrasını münasib vasitələri təmin etməlidir;

7. *Qərara alır ki,*

(a) cavabdeh dövlət Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq qərarın qəti qərara çevrildiyi tarixdən üç ay ərzində şikayətçilərə aşağıda göstərilən məbləği ödəməlidir:

- Cənab Asif İsgəndərov (50711/07 saylı şikayət) - vurulmuş maddi ziyana görə 13.051 (on üç min əlli bir) AVRO və vurulmuş mənəvi ziyana görə 4.800 (dörd min səkkiz yüz) AVRO;

- Cənab Vasif İsmayılov (50793/07 saylı şikayət) - vurulmuş maddi ziyana görə 12.191.35 (on iki min yüz doxsan bir AVRO və otuz beş sent) və vurulmuş mənəvi ziyana görə 4.800 (dörd min səkkiz yüz) AVRO;

- Xanım Mirtəranə Kərimova (50848/07 saylı şikayət) - vurulmuş maddi ziyana görə 11.369 (on bir min üç yüz altmış doqquz) AVRO və vurulmuş mənəvi ziyana görə 4.800 (dörd min səkkiz yüz) AVRO;

- Cənab Səmid Kərimov (50894/07 saylı şikayət) - vurulmuş maddi ziyana görə 10.407.8 (on min dörd yüz yeddi AVRO and səkkiz sent) və vurulmuş mənəvi ziyana görə 4.800 (dörd min səkkiz yüz) AVRO; və

- Xanım Sədaqət Əhmədova (50924/07 saylı şikayət) - vurulmuş maddi ziyana görə 12.196 (on iki min yüz doxsan altı) AVRO və vurulmuş mənəvi ziyana görə 1.600 (bir min altı yüz) AVRO;

(b) yuxanda qeyd olunan hər iki məbləğ ödəniş tarixində tətbiq edilən məzənnə üzrə Yeni Azərbaycan manatına çevrilməli və bu məbləğlərin üzərinə onlardan tutula biləcək hər hansı vergi məbləği əlavə olunmalıdır;

(c) yuxanda qeyd edilən üç aylıq müddət bitdikdən sonra öhdəlik icra edilənə qədər yuxanda qeyd edilən ödənilməli olan məbləğin üzərinə Avropa Mərkəzi Bankındakı borc dərəcəsinin yuxan həddinə bərabər olan adi faiz məbləği əlavə edilməli və onun da üzərinə daha üç faiz əlavə olunmalıdır;

7. Əvəzin ədalətli ödənilməsi haqqında şikayətçilərin qalan tələblərini *rədd edir.*

Qərar ingilis dilində tərtib edilib və Məhkəmə Reqlamentinin 77-ci Qaydasının 2-ci və 3-cü bəndlərinə uyğun olaraq, 8 iyul 2010-cu ildə yazılı məlumat verilib.

*Sören Nilsen* *Krıstos Rozakis*
*Sədr* *Katib*

## ƏLAVƏ

**Cədvəl 1**

| Şikayət № | Şikayətçi | Yaşayış orderinin verilmə tarixi | Son ölkədaxili məhkəmə qərarının tarixi |
|---|---|---|---|
| 50711/07 | Asif İsgəndərov | 19 yanvar 1998-ci il | 20 aprel 1998-ci il, Yasamal Rayon Məhkəməsi |
| 50793/07 | Vasif İsmayılov | 21 yanvar 1998-ci il | 09 iyun 1999-cu il, Yasamal Rayon Məhkəməsi |
| 50848/07 | Mirtəranə Kərimova | 14 yanvar 2000-ci il | 16 may 2002-ci il, Yasamal Rayon Məhkəməsi |
| 50894/07 | Səmid Kərimov | 29 yanvar 1998-ci il | 11 iyul 2003-cü il, Yasamal Rayon Məhkəməsi |
| 50924/07 | Sədaqət Əhmədova | 03 dekabr 2007-ci il | 06 noyabr 2007-ci il, Bakı Apellyasiya Məhkəməsi |

**Cədvəl 2**

| Şikayət № | Maddi ziyana görə iddia edilən məbləğ (AVRO) | Maddi ziyana görə Hökumət tərəfindən qəbul edilmiş ödəniləcək məbləğ (AVRO) | Mənəvi ziyana görə iddia edilən məbləğ (AVRO) | Məhkəmə xərcləri və digər məsrəflərlə bağlı iddia edilən məbləğ |
|---|---|---|---|---|
| 50711/07 | 72.944 | 13.051 | 25.000 | 1.503 |
| 50793/07 | 72.944 | 12.191,35 | 25.000 | 1.503 |
| 50848/07 | 68.809 | 11.369 | 20.000 | 1.503 |
| 50894/07 | 68.809 | 10.407,8 | 20.000 | 1.503 |
| 50924/07 | 72.944 | 12.196 | 25.000 | 1.503 |